

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 104 (21.005)

4 iyun 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



İyunun 3-də Bakı Sərgi Mərkəzində XXI Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı açılış mərasimində nitq söylədi.

ABŞ-ın Azərbaycandakı səfiri Riçard Morninqstar Prezident Barak Obamanın, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Xarici İşlər Nazirliyinin Azərbaycandakı ticarət nümayəndəsi Çarlz Hendri Baş nazir Devid Kemeronun, Norveç Krallığının neft və enerji nazirinin müavini Kare Fostervold Baş nazir xanım Erna Solberqin, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Malena Mard qurumun enerji məsələləri üzrə komissarı Günter Ottingerin təbrik məktublarını oxudular.

Sonra bp şirkətinin baş icraçı direktoru Robert Dadli çıxış etdi.

Daha sonra Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.

Məlumat verildi ki, bu il sərgidə dünyanın 29 ölkəsindən 402 şirkət iştirak edir. Sərgi meydançasının 70 faizdən çoxu dünyaca məşhur şirkətlər tərəfindən tutulmuşdur və onların arasında Əsrin müqaviləsinin bilavasitə iştirakçıları vardır.

Dövlətimizin başçısı sərginin Fəxri qonaqlar kitabını imzaladı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Böyük Britaniya Parlamentinin üzvü, Baş nazirin Azərbaycan, Qazaxıstan və Türkmənistan ilə ticarət məsələləri üzrə elçisi Çarlz Hendrinin başçılıq etdiyi nümayəndə heyətini, bp şirkətinin baş icraçı direktoru Robert Dadlini, Çex Respublikasının xarici işlər naziri Lubomir Zaoralekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

## Heydər Əliyev və Azərbaycan



İyunun 3-də Naxçıvan Dövlət Texniki Kollecində Milli Qurtuluş Günü münasibətilə "Heydər Əliyev lektoriyası"nın "Heydər Əliyev və Azərbaycan" mövzusunda növbəti məşğələsi keçirilmişdir. Tədbiri giriş sözü ilə kollecin direktoru Məhəmməd Qəribov açaraq xalqımızın dahi oğlu, ümummilli lider Heydər Əliyevin Azərbaycanın hərtərəfli inkişafındakı xidmətlərindən bəhs etmişdir.

Naxçıvan Özəl Universitetinin tədris və elmi işlər üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru İbrahim Kazımbəyli "Heydər Əliyev və Azərbaycan" mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, 1990-1993-cü illərdə respublikaya rəhbərlik edənlərin səriştəsizliyi ucbatından ölkəmizdə özbaşınalıq yaranmış, daxili sabitlik pozulmuş, vətəndaş müharibəsinə rəvac verilmişdir. Torpaqlarımızın 20 faizinin işğal edildiyi, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi bir zamanda xalqın böyük bir liderə – əsl xilaskara ehtiyacı vardı. Belə bir vəziyyətdə ölkəni, dövlətçiliyimizi və müstəqilliyimizi təhlükədən yalnız Heydər Əliyev dühası qurtara bilərdi. Buna görə də xalqımız böyük və müdrik şəxsiyyət Heydər Əliyevə üz tutdu. Xalqın çağırışlarını nəzərə alan ümummilli lider Heydər Əliyev 1993-cü ilin 15 iyun tarixində yenidən siyasi hakimiyyətə qayıtdı.

Qeyd olunmuşdur ki, dahi rəhbərin yenidən siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimiz qorunmuş, torpaqlarımızın işğalına son qoyulmuş, ölkədə əmin-amanlıq, siyasi sabitlik bərqərar edilmişdir. Milli Qurtuluş Günündən başlanan inkişaf Azərbaycanı dünyada söz sahibinə, regionun lider dövlətinə çevirmişdir.

Sonda ümummilli lider Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əks etdirən slaydlar nümayiş etdirilmişdir.

## Qafqaz Universitetləri Birliyinin növbəti konqresi

### *Konqresdə Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin bir sıra ali məktəbləri arasında əməkdaşlıq protokolu imzalanmışdır*

Ankarada "Qafqazın gələcəyində enerjinin rolu: Region ölkələrinin həmrəyliyi" mövzusunda Qafqaz Universitetləri Birliyinin (QUB) ənənəvi IV konqresi keçirilmişdir. Tədbir Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Xəzər Forumu, Ankara Siyasi və İqtisadi Araşdırmalar Mərkəzi, Türkiyə İş Bankı və Ərdahan Universiteti tərəfindən təşkil olunmuşdur.

Konqresdə Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız, bölgə ölkələrinin energetika nazirləri, Türkiyə Prezidenti Administrasiyasının rəhbəri, professor Mustafa İsen, Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev, Qafqaz Universitetləri Birliyinin sədri – Ərdahan Universitetinin rektoru, professor Ramazan Qorxmaz, ümumilikdə, 67 universitetin rektorları iştirak etmişdir. Konqresdə Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov da iştirak etmişdir.

S.Məhərrəmov konqresdə çıxış edərək qardaş ölkələrimiz arasında əlaqələrin inkişafında elm, təhsil sahəsində əməkdaşlığın əhəmiyyətindən, Naxçıvan Dövlət Universitetinin Türkiyənin əksər universitetləri ilə çoxillik səmərəli tərəfdaşlığından danışmışdır. Qeyd edilmişdir ki, Naxçıvan Dövlət Universiteti ötən ilin mayından Türkiyənin universitetləri ilə digər ölkələrin ali təhsil ocaqları arasında tələbə və müəllim mübadiləsini nəzərdə tutan Mövlana Mübadilə Proqramında da uğurla təmsil olunur.

Rektor vurğulamışdır ki, 2009-cu ildə yaradılan və 60 universiteti özündə birləşdirən QUB Qafqazda yaşayan və ortaq mədəniyyətləri paylaşan Azərbaycan, türk, gürcü xalqlarının elmi-intellektual inkişafında, tələbə-gənclər arasında elmi-mədəni tərəfdaşlığın möhkəmlənməsində, təcrübə mübadiləsinin genişləndirilməsində mühüm rol oynayır. Universitet muxtar respublika rəhbərliyinin tövsiyə və qayğısı ilə Türkiyənin ali məktəbləri ilə əlaqələrini bundan sonra daha da genişləndirməyə çalışacaqdır.

Konqresdə 13 universitet Qafqaz Universitetləri Birliyinin tərkibinə daxil edilmişdir. Həmçinin Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin Kastamonu, Cümhuriyyət, Yakın Doğu, Çankaya, Ərzurum Texniki və sair universitetləri arasında Mövlana Mübadilə Proqramı ilə bağlı protokol imzalanmışdır.

Tədbirdə çıxış edən Taner Yıldız dünyada enerji böhranından, ölkəsinin enerji ehtiyatlarından danışmış, bu sahədə əməkdaşlığın əhəmiyyətini vurğulamışdır.

Mövzu ətrafında aparılan müzakirələrdən sonra Qafqaz Universitetləri Birliyinin "Ədəbiyyat-2014" mükafatlarının təqdim edilməsi mərasimi olmuşdur. Professor Saleh Məhərrəmov bu tədbirdə də iştirak etmişdir.

Qafqaz Universitetləri Birliyinin növbəti konqresi İran İslam Respublikasının Təbriz Universitetində keçiriləcəkdir.

## Cari ilin ötən dövründə muxtar respublikada 1133 nəfər işlə təmin olunmuşdur

### *İşaxtaran vətəndaşların işlə təmin edilməsi üçün iyun ayında növbəti əmək yarmarkaları keçiriləcəkdir*

Əhalinin məşğulluğunun təmin olunması məqsədilə işaxtaran vətəndaşların münasib işlə təmin edilməsi, onların haqqıödənilən ictimai işlərə cəlb olunması, habelə peşə hazırlığı sahəsində muxtar respublikada həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bir daha onu göstərir ki, bu şəraitində yaşaya-yaşaya böyük uğurlara nail olmaq mümkündür. İndi regionda əhalinin məşğulluğunun təmin edilməsində ən çevik yol olan əmək yarmarkalarından geniş istifadə edilir. Rayonlarda fəaliyyət göstərən məşğulluq orqanları bu işdə mühüm rol oynayırlar. İşəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, muxtar respublikada cari ilin ötən dövrü ərzində şəhər və rayonlarımızın hər birində 1 dəfə əmək yarmarkaları keçirilmişdir. Yarmarkalarda 320 nəfər, ümumilikdə, ötən 5 ay ərzində 1133 nəfər işlə təmin olunmuş, 150 nəfər peşə hazırlığına, 51 nəfər kvota yerinə göndərilmiş, 52 nəfər ictimai işlərə cəlb edilmişdir.

Məlumat üçün bildirək ki, növbəti əmək yarmarkalarına iyunun 11-dən start veriləcək. Həmin gün tədbir Sədərək rayonunun Heydərabad Qəsəbə Mərkəzində təşkil olunacaq. İyun ayının 12-də Kəngərli Rayon Məşğulluq Mərkəzində bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. İyun ayının 13-də keçiriləcək əmək yarmarkası Şahbuz şəhərindəki "Araz" kinoteatrının binasında olacaq. Culfa rayonunun işaxtaran sakinləri üçün bu tədbir iyun ayının 18-də keçiriləcəkdir. İyun ayının 19-da ordubadlılara, 20-də babəklilərə, 24-də şərurlulara boş iş yerləri təqdim olunacaq.

Naxçıvan şəhərində əmək yarmarkası iyun ayının 25-də "Gənclik" Mərkəzində keçiriləcək.

Qeyd edək ki, muxtar respublikanın rayon (şəhər) məşğulluq mərkəzləri tətil günlərində işləmək arzusunda olan tələbələrin xüsusi peşə hazırlığı tələb etməyən haqqıödənilən ictimai işlərə, mövsümi və digər müvəqqəti xarakterli işlərə göndərilməsini təmin edir. İşləmək arzusunda olan tələbələr yaşadıqları ərazinin məşğulluq mərkəzlərinə müraciət edə bilərlər.

## Ekoloji tədbirlər cari ildə də uğurla davam etdirilir

### *Bu il 214 hektar sahədə yeni yaşıllıqlar salınıb*

***Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən inkişaf strategiyasının ardıcıl şəkildə həyata keçirilməsi muxtar respublikamızda davamlı inkişafa zəmin yaratmışdır. Bu strategiyaya uyğun həyata keçirilən tədbirlər nəticəsində digər sahələrdə olduğu kimi, ekologiya sahəsində də davamlı inkişafa nail olmuşdur.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, "Muxtariyyət ili" olan 2014-cü ilin ilk 4 ayında Naxçıvan Muxtar Respublikası ərazisində mövcud ekoloji vəziyyətin (ekoloji tarazlığın) qorunması, ətraf mühitin mühafizəsi, əlverişli ekoloji mühitin yaradılması məqsədilə lazımi tədbirlər həyata keçirilmişdir. Belə ki, təbii sərvətlərdən istifadəyə, çirkləndirici maddələrin ətraf mühitə atılması və axıdılmasına görə, ekoloji ödənişlərin təyin edilməsi və icrasına nəzarətin həyata keçirilməsi diqqətdə saxlanılmış, muxtar respublikanın daxili sularında (çaylar, göllər, bulaqlar və sair) 14 monitorinq-yoxlama aparılmış, 24 su nümunəsi götürülərək fiziki-kimyəvi xassələrini öyrənmək məqsədilə 108 laboratoriya analiz-təhlillər aparılmışdır. Ekologiya sahəsində Azərbaycan Respublikasının mövcud qanunlarına, bu sahədə qəbul edilmiş sərəncam və qərarlara, digər normativ-hüquqi sənədlərə uyğun olaraq, muxtar respublika ərazisində ətraf mühitin mühafizəsi, ekoloji qanunazidd halların qarşısının alınması məqsədilə aidiyyəti orqanlarla birlikdə 27 yoxlama-reyd həyata keçirilmiş, qanunazidd hallar aşkar edilməmişdir.

"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, dağlıq və orta dağlıq ərazilərdə meyvəçiliyin inkişaf etdirilməsi, həmin ərazilərin iqlim və torpaq xüsusiyyətlərinə uyğunlaşdırılmış ağacların, tinglərin yetişdirilməsi və yeni meyvə bağlarının salınması istiqamətində nəzərdə tutulan tədbirlər qeyd olunan dövrdə qoruq, milli park və yasaqlıq ərazilərində uğurla icra edilmişdir. Bu məqsədlə Şahbuz Dövlət Təbiət Qoruğuna bufer ərazidə 4 hektar, Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı ərazisində 1,5 hektar, "Arpaçay" Dövlət Təbiət Yasaqlığı ərazisində 1 hektar, Ordubad Dövlət Yasaqlığı və "Arazboyu" Dövlət Təbiət Yasaqlığı ərazilərində 1,5 hektar sahədə meyvə bağları salınmışdır.

2014-cü ilin yaz-əkin mövsümündə muxtar respublika ərazisində, ümumilikdə, 214 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilmiş, 228 min ədəd ağac və bəzək kolları əkilmişdir. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmış plan-proqrama uyğun olaraq, Uzunoba Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi ətrafında, Əshabi-Kəhf ziyarətgahına, Ağbulaq kəndinə gedən yolun kənarlarında, Heydər Əliyev Su Anbarı ətrafında və xüsusi mühafizə statuslu təbiət ərazilərində 51 hektar sahədə meşəsalma, toxumla meşəbərpa tədbirləri həyata keçirilmiş, yeni meyvə bağları salınmış, 27 min 800 ədəd ting (meşə tingi 2 min 450 ədəd, meyvə tingi 25 min 350 ədəd) əkin dövriyyəsinə daxil edilmişdir. Bununla yanaşı, aparılan yaşıllaşdırma tədbirlərində tingə (meşə və meyvə tinglərinə, həmişəyaşıl ağaclara) olan tələbat nazirliyin tabeli idarələri tərəfindən tam təmin edilmiş, 35 mindən çox ting aidiyyəti təşkilatlara paylanmışdır.

Hazırda muxtar respublika ərazisində mövcud olan əlverişli iqlim şəraiti nəzərə alınaraq ayrı-ayrı ərazilərdə yaşıllaşdırma tədbirləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

Naxçıvan Muxtar Respublikası – 90

# Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir

***Ümummilli lider Heydər Əliyevin çıxış və məruzələrində vurğuladığı kimi, “tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət edən” Naxçıvan bölgəsi muxtariyyətin yaranması ərəfəsində tarixinin ağır günlərini yaşayırdı. Keçən yüzilliyin əvvəllərində dünyada baş verən sosial-siyasi hadisələr, xüsusilə I Dünya müharibəsində Rusiyanın uğursuzluqları imperiyanın mərkəzində olduğu kimi, ucqarlarında da vəziyyəti xeyli ağırlaşdırmış, dövlətin dağılması ilə nəticələnmişdi. İmperiyanın tərkib hissəsi kimi bu zaman Azərbaycanda, o cümlədən Naxçıvanda da vəziyyət son dərəcə pisləşmişdi. Yaranmış vəziyyətdən istifadə edərək ermənilər “böyük Ermənistan” xülyasını gerçəkləşdirmək üçün Azərbaycanın bu qədim diyarına yiyələnmək uğrunda işə başlamışdılar. Daşnak ermənilərin buraya hücumları, həmçinin XIX yüzillikdə Naxçıvana köçürülən ermənilərin və Andranik Ozanyanın quldur dəstəsinin ərazidə müsəlman-türk əhaliyə qarşı törətdiyi vəhşiliklər vəziyyəti daha da mürəkkəbləşdirirdi.***

1919-cu il noyabrın 23-də Amerika Birləşmiş Ştatları nümayəndələrinin təşəbbüsü və vasitəçiliyi ilə müharibələrə son qoyulması məqsədilə Tiflis şəhərində Azərbaycan Xalq Cümhuriyyəti ilə Ermənistanın daşnak hökuməti arasında bağlanan müqaviləyə əsasən, döyüşləri dayandırmaq haqqında razılıq əldə olunmuşdu. Müqaviləyə əsasən, hər iki tərəf bir-birinə hücum etməməyi, Zəngəzura gedən yolların açılmasını, anlaşılmaz məsələlərin sülh yolu ilə həll edilməsini, həmçinin öz qoşunlarını Zəngəzurdan çıxarmağı öhdələrinə götürmüşdülər. Buna əsasən, bir az sonra Azərbaycan Xalq Cümhuriyyəti öz qoşunlarını Zəngəzurdan çıxarmışdır. Ancaq Ermənistan öz sözünə əməl etməmişdir. Nəinki qoşunlarını Zəngəzurdan çıxarmamış, əksinə, quldur Dronun qoşunları Zəngəzura daxil olmuşdur. Ermənilər Tiflis müqaviləsinə məhəl qoymayaraq, hətta onun şərtlərini pozaraq Zəngəzurun və Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə hücumlar edərək dekabrın 27-də Hacılar kəndində, 28-29-da Zabuxçay körpüsündə, 30-da Muradlı dəyirmanında, 31-də Mirzə Cəlildə, 1920-ci il yanvarın 3-də Əliqulu kəndində, 5-də Müsəlmanlar kəndində dağıntılar və qırğınlar törətmişlər. 19 yanvar 1920-ci ildə Zəngəzurun 8 kəndini dağıdıb əhalisinə divan tutmuşlar. Ermənistan hökuməti Zəngəzurdan Qaladərəsinədək olan geniş ərazidə həyata keçirilən hərbi əməliyyatlarla Zəngəzuru Qarabağla birləşdirmək, bununla da, Naxçıvanı ayrı salmaqla bütün bölgəni özlərinə tabe etdirmək məqsədini həyata keçirmək istəyirdi. Buna nail olmaq üçün “etnik təmizləmə”ni başlıca vasitələrdən biri sayan ermənilər bir həftə ərzində (19-25 yanvar 1920) Zəngəzurda 50-dən çox azərbaycanlı kəndini dağıdaraq əhalisini qırmış, sağ qalanları qaçmağa məcbur etmişdilər. Beləliklə, Zəngəzur ermənilərin nəzarətinə keçmişdi. Az sonra Azərbaycan ordusu və könüllü partizan dəstələri tərəfindən Zəngəzurda qısamüddətli sabitlik yaradılsa da, həmin vaxtdan Naxçıvanın faktiki olaraq Azərbaycandan ayrı düşməsinin əsası qoyulmuşdur.

29 noyabr 1920-ci ildə Ermənistan SSR-nin yaradılmasından sonra ermənilərin Naxçıvana olan ərazi iddiaları daha da genişlənmişdir. Bu zaman V.İ.Lenin, İ.Stalin və S.Orconikidze Naxçıvanın Ermənistana verilməsi ideyasını müdafiə edirdilər. İ.Stalin hələ Ermənistanda Sovet hakimiyyətinin qurulmasından əvvəl, 4 noyabr 1920-ci ildə AK(b)P Mərkəzi Komitəsinin Siyasi Bürosu və RK(b)P Qafqaz Bürosu üzvlərinin iştirakı ilə “Ermənistanda vəziyyət” məsələsi müzakirə edilərkən belə bir bəyanatla çıxış etmişdi ki, əgər bilmək istəyirsinizsə Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə (yəni daşnak hökumətinə – F.S.) vermək olmaz, sovet hökuməti olanda vermək olar. Bu bəyanat elə bir vaxtda verilmişdi ki, artıq Qırmızı ordu hissələri Cənubi Qafqaza daxil olmuş, Azərbaycanı, az sonra Naxçıvanı sovetləşdirmişdi. Ermənistanın sovetləşməsinə lap az qalmışdı. Başqa sözlə desək, Ermənistan 29 noyabrda, yəni bəyanatdan 25 gün sonra sovetləşdirilmişdir. Deməli, İ.Stalin bu vəziyyəti qabaqcadan görür və faktiki olaraq Naxçıvanın və Zəngəzurun Ermənistana verilməsini istəyirdi. Məhz buna görə də Ermənistan sovetləşdikdən sonra sovet rəhbərliyinin bu siyasəti nəticəsində Zəngəzur ərazisinin böyük bir hissəsi Ermənistan SSR-ə verilmişdir. Bu tarixi Azərbaycan torpağının hesabına Ermənistan SSR Xalq Komissarları Sovetinin 20 iyul 1921-ci il tarixli qərarı ilə Ermənistan SSR-in tərkibində Zəngəzur qəzası yaradılmışdır.



Beləliklə, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan bölgəsi süni surətdə Azərbaycanın əsas hissəsindən ayrı salınmış və faktiki olaraq həmin vaxtdan blokada şəraitində yaşamağa məcbur olmuşdur. Ona görə də bu məsələlərdən bəhs edən ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də, Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə 8 aprel 2014-cü ildə Naxçıvan şəhərində keçirilən təntənəli yığıncaqda çıxış edərkən bu məsələyə toxunaraq demişdir: ***“...O vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məskənlərinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda böyük türk dünyası iki yerə bölünürdü. Bu, ədalətsizlikdir, bu, sağalmayan yaradır”.***

Sovet rəhbərlərinin Azərbaycana qarşı bu cür mənfi münasibətinə, xüsusilə Naxçıvan və Zəngəzurla bağlı 1 dekabr 1920-ci il tarixli bəyanata görə Naxçıvan əhalisinin geniş etirazları başlanmışdır. Naxçıvanda vəziyyət kəskinləşdiyinə görə respublika rəhbərliyi xalq ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərmişdir. Erməni təcavüzünə qarşı əhalinin təşkilatlanmasında B.Şahtaxtinski müstəsna rol oynamışdır. Vəziyyətin ciddiliyini görən Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil Sovet Sosialist Respublikası kimi tanımış və Naxçıvanla bağlı ərazi iddialarından əl çəkdiyini bildirmişdir. Naxçıvanı Azərbaycanın tərkib hissəsi kimi deyil, Azərbaycandan ayrı, müstəqil bir dövlət kimi tanımaqda da erməni hiyləgərliyi özünü büruzə vermiş, gələcəkdə Naxçıvana olan ərazi iddialarının gerçəkləşdirilməsinin asan olması üçün ermənilər onu Azərbaycanın bir hissəsi kimi deyil, müstəqil SSR kimi tanımışdılar.

Behbud ağa Şahtaxtinskinin təşəbbüsü ilə 1920-ci ilin yanvarında Naxçıvanda referendum keçirilmişdir. Əhalinin 90 faizindən çoxu Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səs vermişdir. Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində Moskva və Qars müqavilələrinin böyük rolu olmuşdur. N.Nərimanovun bu məsələdə prinsipial mövqeyi, B.Şahtaxtinskinin Moskvada apardığı danışıqlar Naxçıvan məsələsində Moskvanın mövqeyinin dəyişməsinə öz təsirini göstərmişdir. Ümumiyyətlə, B.Şahtaxtinskinin Naxçıvana muxtariyyət statusunun verilməsində çox böyük xidmətləri olmuşdur. O, V.İ.Leninə məktublar yazmış, Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ haqqında həqiqətləri ona çatdırmışdı. Məktublarda tarixi Azərbaycan torpaqları olan bu ərazilər, həmin yerlərin tarixi coğrafiyası, əhalisinin milli tərkibi haqqında məlumatlar vermiş, fikirlərini sübut etmək üçün Moskvaya bir sıra arayışlar göndərmişdi. Bütün bunlar V.İ.Leninin diqqətini cəlb etmiş, nəticədə, Siyasi Büro onun təklifi ilə Azərbaycan SSR-in tərkibində Naxçıvan SSR-in təşkili haqqında qərar qəbul etmişdi.

16 mart 1921-ci ildə RSFSR ilə Türkiyə arasında bağlanan Moskva müqaviləsi, bunun ardınca 13 oktyabr 1921-ci ildə Qarsda Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndələrinin iştirakı ilə imzalanan müqavilə Naxçıvanın ərazi mənsubiyyətini, sərhədlərini təsdiqləmişdir. Ancaq müxtəlif səbəblərdən Naxçıvanda muxtariyyətin yaradılması ləngimiş, 27 fevral 1923-cü ildə III Ümumnaxçıvan Sovetlər Qurultayının qərarı ilə Naxçıvan Muxtar Diyarı yaradılmışdır. Nəhayət, 9 fevral 1924-cü ildə Azərbaycan MİK Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradıldığını elan etmişdir. Beləliklə, qədim və əzəli Azərbaycan ərazisi olan Naxçıvan 1920-1923-cü illərdə Naxçıvan SSR, 1923-1924-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-cü ilin 9 fevralından 1990-cı ilin 17 noyabrınadək Naxçıvan MSSR adlanmışdır. Naxçıvan MSSR Ali Sovetinin 1990-cı ilin 17 noyabrında keçirilən ilk sessiyasına sədrlik edən xalqımızın ümummilli lideri Heydər Əliyevin təklifi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarılmış və Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Beləliklə, Naxçıvan əhalisinin igidliyi, qəhrəmanlığı, vətənpərvərliyi sayəsində çox çətin və mürəkkəb şəraitdə Azərbaycanın ərazi bütövlüyü qorunub saxlanmış, ermənilərin “böyük Ermənistan” xülyasının gerçəkləşməsinə imkan verilməmişdir. Bütün bunlara görə ümummilli lider Heydər Əliyev demişdir: ***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq”.***

Ancaq çox təəssüflər olsun ki, keçən yüzilliyin 90-cı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevlə açıq mübarizədə heç bir nəticə əldə edə bilməyən və iflasa uğrayan bəzi qüvvələr ulu öndəri hakimiyyətdən kənarlaşdırmaq, siyasi həyatdan təcrid etmək üçün müxtəlif bəhanələrlə həmin vaxt dahi şəxsiyyətin rəhbərlik etdiyi Naxçıvanın muxtariyyət statusunun ləğv olunması istiqamətində iş aparmağa başladılar. Lakin ulu öndər bu cəhdlərin qarşısını qətiyyətlə aldı. Ümummilli liderimiz 1992-ci il mart ayının 22-25-də Türkiyə Respublikasında səfərdə olarkən 1921-ci ildə Qarsda müddətsiz imzalanan və imzalayan dövlətlərdən heç birinin birtərəfli qaydada ləğv edə bilməyəcəyi müqavilənin gündəliyə çıxarılmasına nail olmuş, bu zaman “Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır” fikri xüsusi olaraq vurğulanmışdır. Həmin vaxt Türkiyə Respublikasının Baş naziri olan Süleyman Dəmirəl bəyan etmişdi ki, Naxçıvan Muxtar Respublikasının statusunda bir dəyişiklik edilərsə, Moskva və Qars müqavilələrinə görə Türkiyə burada söz sahibidir.

Ümummilli lider Heydər Əliyev tərəfindən “Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün çox böyük, əvəzi olmayan bir sənəd” kimi dəyərləndirilən Qars müqaviləsinin bir daha gündəliyə çıxarılması ilə Naxçıvana ərazi iddialarında olan işğalçı Ermənistana və Naxçıvanın muxtariyyət statusunu ləğv etmək istəyən bəzi daxili qüvvələrə Naxçıvanın muxtariyyət statusunun qarantı olan Qars müqaviləsinin qüvvədə olduğu və bu statusun heç bir qüvvə tərəfindən dəyişdirilməsinin və ya ləğv olunmasının yolverilməz, qeyri-mümkün olması bildirilmişdir. Beləliklə, ulu öndərin həyata keçirdiyi bu və digər uğurlu tədbirlər nəticəsində Naxçıvanın muxtariyyət statusu qorunub saxlanmışdır.

Dahi şəxsiyyətin həyatı və siyasi fəaliyyətinin bütün dövrlərinə nəzər salarkən aydın olur ki, onun fəaliyyətində Naxçıvan Muxtar Respublikasına diqqət və qayğı mühüm yer tutur. Naxçıvan Muxtar Respublikası həyatının elə bir sahəsi tapılmaz ki, orada görkəmli dövlət xadimi Heydər Əliyevin izi olmasın. Qeyd etmək yerinə düşər ki, indiyədək Naxçıvan Muxtar Respublikasının yaradılmasının 8 dəfə (1949, 1964, 1974, 1984, 1999, 2004, 2009, 2014) keçirilən yubileylərinin ikisi (1974 və 1999) ulu öndərin qərarı və iştirakı ilə keçirilmişdir. Ümummilli lider 10 oktyabr 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyində iştirak etmək üçün Naxçıvana gələrkən Bakı hava limanında jurnalistlərlə söhbətində qeyd etmişdi ki, ***“Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycan xalqının, respublikanın həyatında tarixi hadisədir. Bu respublikanı vaxtilə yaradanlar çox müdrik, uzaqgörən insanlar olublar, Azərbaycan torpaqlarının ayrı-ayrı iddiaçılar tərəfindən parçalanmasının qarşısını alıblar”.***

*Möhtərəm Prezidentimiz İlham Əliyev də Naxçıvan Muxtar Respublikasına daim diqqət və qayğı ilə yanaşmış, Azərbaycan Prezidenti olduğu 10 il ərzində bura 11 dəfə səfər etmişdir. Bu səfərlərin üçü (2004, 2009, 2014-cü illər) özünün sərəncamları ilə keçirilən muxtar respublikanın yubileyləri ilə əlaqədar olmuşdur. Muxtar respublikanın 90 illik yubiley mərasimində Naxçıvana muxtariyyət statusu verilməsini “tarixi hadisə”, “Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar” kimi dəyərləndirən Prezident qeyd etmişdir ki, **“bundan sonra Azərbaycanın, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanın uğurlu, dinamik inkişafı təmin ediləcəkdir. ...Biz inamla irəliyə gedirik. İrəliyə getmək üçün bizim yolumuz açıqdır. Bu yolun təməlini ulu öndər qoymuşdur. ...Bizi bu yoldan heç kim döndərə bilməz”.** Çıxış və məruzələrində Naxçıvanda əldə olunan möhtəşəm uğurların əsasında Heydər Əliyev inkişaf strategiyasının dayandığını vurğulayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yubiley mərasimində demişdir: **“Naxçıvan Muxtar Respublikasının 90 il ərzində keçib gəldiyi yol, ondan çıxarılan nəticə bir daha təsdiqləyir ki, tarixin sınaqlarından çıxmış ulu öndər Heydər Əliyevin yolu ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur”.***

**Fəxrəddin SƏFƏRLİ**
**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor**

***Müasir dünyada ölkələr arasında qarşılıqlı iqtisadi-siyasi münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçməsi, sosial-mədəni həyatın beynəlmiləlləşməsi, eyni zamanda milli, irqi, regional münaqişələrin, fövqəladə vəziyyətlərin və təbii fəlakətlərin doğurduğu problemlər əhalinin kütləvi miqrasiyası ilə müşayiət olunur. Miqrasiya prosesləri ayrı-ayrı qitələrin, dövlətlərin və regionların iqtisadi inkişaf səviyyəsi ilə sıx surətdə bağlıdır. Öz ölkələrində normal yaşayış səviyyələrini təmin edə bilməyən insanlar yüksək gəlirli iş əldə etmək üçün qanuni, yaxud da qanunsuz yollarla inkişaf etmiş dövlətlərdə məskunlaşmağa çalışırlar.***

# Miqrasiya proseslərinin yüksək səviyyədə idarə olunması günün tələbidir

Dinamik iqtisadi inkişaf yolunda olan, Şərqlə Qərbi birləşdirən geostrateji ərazidə yerləşən, qlobal enerji layihələrinin həyata keçirildiyi, milli-etnik və dini dözümlülüyün yüksək səviyyəsinə görə fərqli sivilizasiyaları, müxtəlif mədəniyyətləri bir araya gətirən Azərbaycanda miqrasiya proseslərinin dövlət nəzarətində saxlanması, ilk növbədə, milli təhlükəsizliyin hərtərəfli təmini baxımından vacib aktuallıq kəsb edir. Bu aktuallıq bir tərəfdən respublikamızın zəngin təbii ehtiyatlara, inkişaf potensialına malik olması, əlverişli coğrafi mövqedə yerləşməsi, digər tərəfdən beynəlxalq hüquq normalarını kobud şəkildə pozan Ermənistanın təcavüzü ilə üzləşməsi, ağır müharibə şəraitində yaşaması ilə şərtlənir.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev miqrasiya proseslərinin diqqət mərkəzində saxlanılmasını vacib sayaraq bu sahədə məqsədyönlü tədbirlərin həyata keçirilməsini təmin etmişdir. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu Əsrin müqaviləsinin imzalanması respublikaya xarici investisiya axınının sürətlənməsinə səbəb olmuş, əlverişli biznes mühitinin formalaşmasına təkan vermiş, yerli əmək bazarının inkişaf etməsi, yeni iş yerlərinin açılması, xüsusən də əməkçi miqrantların respublikamıza marağının güclənməsi ilə nəticələnmişdir.

Respublikamızın bütün sahələrdə yeniləşdirilməsi, idarəetmədə müasir texnologiyaların tətbiqi zərurəti ilə bağlı yüksəkixtisaslı əcnəbi mütəxəssislərin əmək bazarındakı mövqeyinin möhkəmlənməsi bir sıra nəzirliklərin tərkibində miqrasiya proseslərinin idarə olunması üzrə yeni strukturların formalaşdırılması ilə nəticələnmişdir. Ulu öndər Heydər Əliyev həla o vaxtlar miqrasiya prosesinin mahiyyətini açıqlayaraq deyirdi: ***"Miqrasiya təbii prosesdir, onun qarşısını almaq olmaz, almaq da lazım deyil və ümumən, pozitiv xarakter daşıyır. Dünyada miqrasiya prosesi bütün ölkələrə, xalqlara aiddir".***

Miqrasiya məsələlərinə dair ilk addım ümummilli lider Heydər Əliyev tərəfindən hələ müstəqilliyin ilk illərində atılmışdır. Belə ki, 1994-cü il noyabrın 14-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda insan hüquqları və miqrasiya məsələlərinə dair ilk beynəlxalq konfrans keçirilmişdir.

Bu tədbirlər ümummilli liderimizin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Ölkə Prezidentinin vurğuladığı kimi: ***"Biz miqrasiya siyasətimizi daha da gücləndirməliyik, çox ciddi sistem yaratmalıyıq. Hər bir gələn xarici vətəndaş qeydiyyatdan keçməlidir. Qanunsuz bir adam da burada işləməməlidir. Biz istənilən anda bilməliyik ki, hansı xarici vətəndaş hansı gündə haradadır və nə ilə, hansı işlə məşğuldur".***

Ötən müddətdə miqrasiya proseslərinin idarə olunması və tənzimlənməsi məqsədilə həm qanunvericilik, həm də onun tətbiqi sahəsində bir sıra ciddi addımlar atılmış, əsaslı tədbirlər həyata keçirilmişdir. Belə ki, 2004-cü ildə hökumət qurumları qarşısında əsas məqsədləri müəyyən edən "Dövlət Miqrasiya Siyasəti Konsepsiyası" qəbul edilmişdir. Miqrasiya sahəsində vahid dövlət siyasətini həyata keçirən xüsusi dövlət orqanının yaradılması da obyektiv zərurət kimi meydana çıxmış və bunu nəzərə alan Prezident İlham Əliyev 2007-ci il mart ayının 19-da Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında Fərman imzalamışdır.

Naxçıvan Muxtar Respublikasının müasir iqtisadiyyatı özünün çoxsahəli strukturu ilə Azərbaycanın digər regionlarının iqtisadiyyatından fərqlənir. Bu, muxtar respublikanın Azərbaycan Respublikasının əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar yerli tələbatı mümkün qədər yerli istehsal sahələri yaratmaqla daxili imkanlar hesabına təmin etmək zərurəti ilə bağlıdır. Muxtar respublikada yeni istehsal sahələri yaradılmış, zəngin təbii ehtiyatlar aşkara çıxarılaraq istismara cəlb olunmuş, sənaye sahəsi müasir texnika və texnologiya ilə təchiz edilmişdir. Hazırda isə əhalinin maddi rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiə və təminat sisteminin gücləndirilməsi, sosialyönümlü iqtisadiyyatın inkişaf etdirilməsi, eyni zamanda qarşıda duran bütün sosial proqramların və infrastruktur layihələrinin uğurla icra edilməsi, məşğulluq səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi, səhiyyə və təhsil sektorunda davamlı inkişaf göstəricilərinin qeydə alınması muxtar respublikanın tərəqqi yolunda olduğunu göstərir. Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikanın bütün sahələrində əldə olunmuş bu yüksək nailiyyətlər, yeni iş yerlərinin açılması, tikinti-quruculuq, abadlıq işlərinin geniş vüsət alması, öz növbəsində, əcnəbilərin muxtar respublikamıza marağını daha da artırmışdır.

İqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində muxtar respublikamızda miqrasiya proseslərinin daha səmərəli üsul və vasitələrlə, vahid dövlət orqanı tərəfindən tənzimlənməsi, onların uçotunun aparılması, miqrasiya siyasətinin həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31 may 2010-cu il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti yaradılmışdır. Artıq dörd ildir ki, fəaliyyət göstərən Dövlət Miqrasiya Xidməti muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətini həyata keçirir.

Miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, bu sahədə beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun iş aparılması, tənzimlənməyən miqrasiya proseslərinin neqativ təsirinin aradan qaldırılması, muxtar respublikanın sabit sosial-iqtisadi, demoqrafik inkişafının təşkili Dövlət Miqrasiya Xidmətinin prioritet vəzifələrindəndir. Bundan başqa, əmək ehtiyatlarından səmərəli istifadə olunması, yerləşdirilməsi, miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, qeyri-qanuni miqrasiyanın qarşısının alınması xidmətin işində önəmli yer tutmuşdur. Dövlət Miqrasiya Xidməti fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq və yüksək humanizm prinsipləri əsasında quraraq aidiyyəti dövlət qurumlarla birlikdə fəaliyyət göstərir, miqrasiya sahəsində aidiyyəti orqanların fəaliyyətini əlaqələndirir. Dövlət Miqrasiya Xidməti əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqətiolma müddətinin uzadılması, ölkə ərazisində müvəqqəti və daimi yaşamaq istəyən əcnəbilərə icazənin, sığınacaq axtaran əcnəbilərə qaçqın statusunun, habelə muxtar respublika ərazisində əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi məsələləri ilə məşğul olub, vətəndaşlıq məsələlərinin həllində iştirak edir. Xidmətə müraciət edənlərin vəsatətlərinə ölkə qanunvericiliyinin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul olunur. Azərbaycan Respublikasında yaşayan və müvəqqəti olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması, miqrasiya proseslərinin idarə edilməsində iştirak edən dövlət orqanlarının zəruri informasiya ilə təmin olunması, miqrasiya ilə bağlı sənədləşmə, yoxlama, sorğu, təhlil işlərinin avtomatlaşdırılması və bu sahədə göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi məqsədilə miqrasiya sahəsində vahid informasiya sistemi – Vahid Miqrasiya Məlumat Sistemi yaradılmışdır. Miqrasiya proseslərinin həyata keçirilməsində böyük rolu olan bu sistemin "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə qoşulması təmin edilmişdir. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, mehmanxanalara gələn hər bir əcnəbi haqqında məlumatların Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə göndərilməsi məqsədilə 2013-cü ilin fevral ayında Vahid Miqrasiya Məlumat Sistemi üzərindən "Mehmanxana altsistemi" proqram təminatı yaradılmışdır.

Dövlət Miqrasiya Xidmətinin qarşısında duran vəzifələrdən biri də miqrantların Azərbaycan Respublikası ərazisində olmalarına və yaşamalarına əsas verən sənədlər olmadan ölkədə məskunlaşmalarının və qanunsuz olaraq muxtar respublika ərazisindən tranzit keçidi kimi istifadə edərək üçüncü ölkəyə keçmələrinin qarşısının alınmasıdır. Bu proseslərin tənzimlənməsi məqsədilə sərhəd-buraxılış məntəqələrində miqrasiya bölmələri fəaliyyətə başlamışdır. Bu bölmələr 2011-ci ildən etibarən miqrasiya proseslərinə ilkin nəzarət mexanizmi üzrə fəaliyyət göstərirlər. Qeyd edək ki, muxtar respublikanın ölkə xaricinə giriş-çıxış qapıları sayılan Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Beynəlxalq Hava Limanı sərhəd-buraxılış məntəqələrində miqrasiya bölmələrinin yaradılması ilə əcnəbilərin təlimatlandırılması prosesində böyük irəliləyişlər əldə edilmiş, qanunsuz miqrasiyanın qarşısının alınmasına nəzarətin daha effektiv şəkildə həyata keçirilməsinə başlanılmışdır. Fəaliyyətə başladıqları gündən sərhəd-buraxılış məntəqələrində yerləşən miqrasiya bölmələrində Vahid Miqrasiya Məlumat Sisteminin fəaliyyəti təmin edilmişdir.

Yaradılmasından bu günə qədər əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə fiziki və hüquqi şəxslər tərəfindən xidmətə, ümumilikdə, 23 min 564 müraciət daxil olmuşdur. Ümumilikdə, xidmətin 4 illik fəaliyyəti dövründə dövlət büdcəsinə 1 milyon 152 min 408 manat məbləğində pul vəsaiti köçürülmüşdür.

Qeyd edək ki, xidmət miqrasiya sahəsində baş verən yeniliklərin və mühüm tədbirlərin ictimaiyyətə çatdırılması, vətəndaşların məlumatlandırılması və maarifləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirmişdir. Belə ki, ictimaiyyətin miqrasiya sahəsində maarifləndirilməsi məqsədilə xidmət əməkdaşlarının iştirakı ilə muxtar respublikanın müxtəlif bölgələrində seminarlar təşkil edilir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin kollektivi üzərinə düşən vəzifələri düzgün və vaxtında icra edərək miqrasiya proseslərinin tənzimlənməsi sahəsində effektiv tədbirlər həyata keçirmək əzmindədir.*

**Nemət ŞÜKÜROV**
**Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin İctimaiyyətlə əlaqələr üzrə baş inspektoru**

# Vladimir Doroxin: Naxçıvanın gözəlliyi və sürətli inkişafı valehedicidir

***"Naxçıvanın gözəlliyi və sürətli inkişafı valehedicidir. Bura hər baxımdan çox gözəl bir məkandır. Mən Naxçıvana dördüncü dəfədir səfər edirəm və hər dəfə bura gələndə yenilik görürəm. Bu, məni çox sevindirir və bir dost kimi Azərbaycana uğurlar arzulayıram".***



Bu sözləri Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxin Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdə rus dili və ədəbiyyatı üzrə keçirilən olimpiadanın açılış mərasimindən sonra kütləvi informasiya vasitələrinin müsahibəsində demişdir.

Səfir qeyd etmişdir ki, Rusiya Federasiyası hər zaman xarici ölkələrdə rus dilinin tədrisini dəstəkləyir: "Bizdə rus dilinin dəstəklənməsi fərqli formada təşkil olunur. Məsələn, biz bu il orta məktəblərdə rus dili olimpiadasını 7-8-ci sinif şagirdləri arasında keçiririk. Olimpiada rus dili üzrə bilikləri və bu il anadan olmasının 200 illiyi qeyd olunan Lermontovun yaradıcılığını əhatə edir. Biz artıq Azərbaycanın ayrı-ayrı bölgələrində 12 belə olimpiada keçirmişik. Naxçıvanda keçirilən olimpiada isə sonuncudur".

Olimpiadanın keçirildiyi 3 nömrəli tam orta məktəbin 500 nəfərə yaxın şagirdinin rus dilində təhsil almasını yüksək qiymətləndirən Rusiya səfiri daha sonra demişdir: "Azərbaycanda rus dilinə olan maraq bizi çox sevindirir. Rus dilini öyrənməklə uşaqlar həm dünyagörüşünü genişləndirirlər, həm də öz potensiallarını artırırlar. Biz həqiqətən çox sevinirik ki, Azərbaycanda rus dilində təhsil almaq istəyənlər var və bütün bunlar münasibətlərimizdəki atmosferi daha da yaxşılaşdırır". Vladimir Doroxin əmin olduğunu bildirmişdir ki, Rusiya ilə Azərbaycanın səmimi qonşuluq və dostluq münasibətləri bundan sonra da inkişaf edəcəkdir.

Səfir əlavə etmişdir ki, Rusiyada Azərbaycandilli tədris mərkəzləri açılır və ali təhsil ocaqlarında da eyni mərkəzlər mövcuddur.

# Yanğın təhlükəsizliyi qaydalarına əməl olunmalıdır

## *Bu mövzuda maarifləndirici tədbir keçirilib*



***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Babək Rayon İcra Hakimyyəti ilə birlikdə ot-taxıl yığımı kampaniyasının başlanması və biçin dövrü ərzində taxıl zəmilərinin və meşələrin yanğından qorunması məqsədilə maarifləndirici tədbir keçirib. Tədbirdə kənd inzibati ərazi dairələri üzrə nümayəndələr, bələdiyyə sədrləri, sahibkarlar, torpaq mülkiyyətçiləri və mexanizatorlar iştirak ediblər.***

Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Abbas Əliyev iştirakçılara tədbirin məqsəd və mahiyyəti barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Yanğın nəzarəti və yanğından mühafizə işinin təşkili bölməsinin rəisi, daxili xidmət kapitanı Mirtaleh Seyidovun "Muxtar respublika ərazisində ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, taxıl zəmilərində yanğın hadisələrinin baş verməsinin əvvəlcədən qarşısının alınması məqsədilə kənd təsərrüfatı texnikalarına yanğına qarşı texniki baxışların keçirilməsi", Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Babək Rayon Şöbəsinin rəisi, daxili xidmət mayoru Yaşar Mustafayevin "Babək rayonu ərazisində ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə görülmüş işlər və qarşıda duran vəzifələr", Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri Zərrab Əfəndiyevin "Biçin kampaniyası dövründə işləyəcək kənd təsərrüfatı texnikalarının və aqreqatların hazırlıq vəziyyətinə gətirilməsi ilə bağlı görülmüş tədbirlər" və aqronom Tofiq Abutalıbovun "Taxıl biçini dövründə sahibkarların və torpaq mülkiyyətçilərinin qarşısında duran vəzifələr" mövzularında çıxışları olub. Çıxışlarda bildirilib ki, taxıl və ot yığımına başlamazdan öncə biçində iştirak edən hər bir mexanizator, sürücü kənd təsərrüfatı texnikalarını yanğına qarşı hazırlamalı, onları yanğına qarşı texniki müayinədən keçirməli, ilkin odsöndürücü vasitələrlə təmin etməlidir.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, taxıl biçinində iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs yanğına qarşı təlimatlandırılmalıdır.

Sonda videoslaydlar göstərilib, iştirakçılara "Ot-taxıl yığımı zamanı yanğın təhlükəsizliyi qaydaları" adlı yaddaş kitabçaları verilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvanlı alimin Türkiyədə apardığı tədqiqatlar elmi ictimaiyyət tərəfindən maraqla qarşılanır

*Naxçıvan Dövlət Universitetinin Kimya kafedrasının müdiri, 3 ixtiranın, 100-dən artıq elmi məqalənin müəllifi olan kimya elmləri doktoru, professor Tofiq Əliyev Türkiyədə neft və təbii qazın çıxarılması, ilkin emalı və nəqlinə uyğun sistemlərdə polad avadanlıqların korroziyadan qorunması ilə bağlı tədqiqatlar aparır. Mövlana Mübadilə Proqramı çərçivəsində Ağrı vilayətindəki İbrahim Çeçen Universitetinin nəzdində fəaliyyət göstərən elmi-tədqiqat laboratoriyasında aparılan tədqiqatlar hər iki ölkənin elmi ictimaiyyəti tərəfindən maraqla qarşılanır.*

Professor Tofiq Əliyev müxbirimizlə söhbətində bildirmişdir ki, müasir dövrdə sənayenin müxtəlif sahələrində, o cümlədən neft və qaz sənayesində istismar olunan çoxsaylı metal avadanlıqlar ətraf mühitin təsiri nəticəsində korroziyaya məruz qalır. Təxmini hesablamalara görə, hər il dünya üzrə istehsal olunan metalların 8-12 faizinin korroziyaya uğradığını deyən professor qeyd etmişdir ki, bu, milyardlarla dollar itkiyə səbəb olur. Məhz buna görə də korroziya prosesinə qarşı effektiv mübarizə üsullarının işlənib hazırlanması yüksək aktuallıq kəsb edir. Korroziya ilə məşğul olan əksər mütəxəssislərin fikrincə, çoxsaylı mübarizə üsulları içərisində inhibitorların tətbiqinə əsaslanan üsul iqtisadi cəhətdən daha əlverişlidir.

Professor onu da əlavə etmişdir ki, araşdırmalar məhz belə bir aktual məsələyə həsr olunduğundan Türkiyənin yerli mətbuatı tərəfindən də geniş işıqlandırılmışdır.

Qeyd edək ki, aparılan tədqiqat işləri respublikamız üçün ənənəvi olan neft və qaz sənayesində geniş miqyasda istifadə edilən, müxtəlif markalı polad avadanlıqların korroziyadan inhibitor mühafizəsinə həsr olunmuşdur. Müxtəlif funksional qruplara malik bəzi üzvi birləşmələrin, neft və qazın çıxarılması, ilkin emalı, saxlanılması və nəqlinə uyğun şəraitlərdə poladın korroziyasına qarşı inhibitor təsirinin yoxlanılmasını əhatə edən tədqiqatların nəticələri bu sənaye sahəsində korroziya ilə mübarizədə istifadə olunacaqdır.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin may ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi (%) |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 952 | 57,1 | 57,5 | 100,7 |
| 2. | Culfa rayonu | 810 | 48,6 | 48,9 | 100,6 |
| 3. | Şahbuz rayonu | 332 | 19,9 | 20,0 | 100,5 |
| 4. | Kəngərli rayonu | 450 | 27,0 | 27,1 | 100,4 |
| 5. | Naxçıvan şəhəri | 2508 | 150,5 | 150,5 | 100,0 |
| 6. | Şərur rayonu | 1868 | 112,1 | 112,1 | 100,0 |
| 7. | Babək rayonu | 1643 | 98,6 | 98,6 | 100,0 |
| 8. | Sədərək rayonu | 250 | 15,0 | 15,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 29636 | 1778,1 | 1778,0 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **38449** | **2306,9** | **2307,7** | **100,0** |

***Qeyd:*** May ayında texniki itki nəzərə alınmaqla daxil olan 38 milyon 449 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 306 min 900 manat olmuş, cəmi 2 milyon 307 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin may ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 276400 | 27640 | 30457 | 110,2 |
| 2. | Şərur rayonu | 723099 | 72310 | 79048 | 109,3 |
| 3. | Ordubad rayonu | 426804 | 42680 | 45131 | 105,7 |
| 4. | Kəngərli rayonu | 285064 | 28506 | 29906 | 104,9 |
| 5. | Culfa rayonu | 381733 | 38173 | 38871 | 101,8 |
| 6. | Naxçıvan şəhəri | 1194715 | 119472 | 120821 | 101,1 |
| 7. | Babək rayonu | 741750 | 74175 | 74273 | 100,1 |
| 8. | Sədərək rayonu | 137699 | 13770 | 9211 | 66,9 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 4682568 | 468141 | 500079 | 106,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **8849832** | **884867** | **927797** | **104,9** |

*2009-cu ildən fəaliyyət göstərən Babək Rayon Xalq Teatrı daim repertuarını zənginləşdirməyə çalışır, günümüzlə səsləşən aktual mövzulara müraciət edir, rayonun mədəni həyatında fəal iştirakı ilə diqqəti çəkir.*

## “İkinci səs” tamaşasına ictimai baxış olmuşdur



Ötən dövr ərzində teatr bir sıra maraqlı səhnə əsərlərinə müraciət etmiş, bölgə sakinlərinin asudə vaxtlarının səmərəli keçməsinə töhfəsini vermişdir. Kollektivin tamaşaçılara təqdim etdiyi Qilyermo Fiqeyredonun “Ezop”, Bəxtiyar Vahabzadənin “Yollara iz düşür”, Məhərrəm Əlizadənin “Şeyx Rəhmətulla”, Cəfər Cabbarlının “Solğun çiçəklər”, Hüseyn Cavidin “Ana” və digər əsərlər uğurlu səhnə həlli ilə teatrsevərlər tərəfindən rəğbətlə qarşılanmışdır.

Teatrın Xalq şairi Bəxtiyar Vahabzadənin “İkinci səs” əsəri əsasında səhnələşdirdiyi tamaşaya Babək Rayon Mədəniyyət Evində ictimai baxış olmuşdur. Səhnə əsərinin rejissoru Yusif Əliyev, musiqi tərtibatçısı Səyyad Məmmədov, rəssamı Əli Səfərovdur. Rollarda Firdovsi Səfərov, Şölə Novruzbəyli,Vüsalə İsmayılova, Stella Babayeva, İsmayıl Qurbanov və başqaları çıxış edirlər.

Ailə-məişət mövzusunda olan əsərdə tamaşaçıya mənəvi təmizlik, ailəyə sədaqət, vəzifə borcuna məsuliyyət, insan ləyaqətinin uca tutulması kimi dəyərlər aşılanır. Cəmiyyətin sağlam təməllər üzərində inkişafında mühüm amillər olan bu dəyərlərin tamaşaçılara təqdimində aktyorlar öz imkanlarından maksimum istifadə etməyə səy göstərmişlər.

Tamaşadan sonra Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev, Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov teatrın kollektivini uğurlu tamaşa üçün təbrik etmiş, aktyorlara mükafat və fəxri fərmanlar təqdim olunmuşdur.

**✍ Muxtar MƏMMƏDOV**

*Yeni nəşrlər*

## İngilis dilinin tədrisi metodikasına dair yeni kitab

*Bu gün dünya sürətlə inkişaf edir, dəyişir və qloballaşır. Bu qloballaşma artıq sosial həyatın bütün sahələrinə, eləcə də təhsil sahəsinə dərindən nüfuz edib. Təbii ki, qloballaşma şəraitində təlimin məzmun və keyfiyyətində də dəyişikliklər aparılmalıdır. Müəllim bu gün tədris materiallarının müasir tələblər səviyyəsində mənimsədilməsi üçün yeni pedaqoji texnologiyalardan və metodlardan səmərəli istifadə etməlidir.*

Hər bir inkişaf etmiş ölkədə olduğu kimi, Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında da elm və təhsil prioritet sahə hesab olunur. Respublikamızda elm və təhsilə, xüsusilə xarici dillərin öyrənilməsinə böyük diqqət və qayğı göstərilir. Naxçıvan Dövlət Universitetində də xarici dillərin tədrisinə xüsusi diqqət və qayğı ilə yanaşılır. Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi müasir texnoloji avadanlıqlarla təchiz olunub, burada müasir tələblərə cavab verən linqafon kabinələri yaradılıb. Bir sözlə, dərsin yüksəkkeyfiyyətli, müasir üslubda keçilə bilməsi üçün bütün şərait yaradılıb. Bunlardan əlavə, müəllimlərimiz beynəlxalq səviyyəli layihələrdə, proqramlarda, treninqlərdə iştirak edirlər.

Yuxarıda sadaladıqlarımızın nəticəsidir ki, müəllimlər yeni-yeni uğurlara imza atırlar. Bu baxımdan pedaqogika üzrə fəlsəfə doktoru Mirhəsən Eminovun “İngilis dilinin tədrisi metodikası fənninin tədrisində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi təcrübəsindən” adlı metodik vəsaiti diqqətəlayiqdir. Vəsaitin TEMPUS layihəsi çərçivəsində təkrar nəşr olunması, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən fənn proqramı və metodik vəsait kimi təsdiq edilməsi vəsaitin önəmini birə-beş artırır. Vəsait ali məktəb tələbələrinin və ingilis dili müəllimlərinin istifadəsi üçün nəzərdə tutulub. Bu vəsaitin aktuallığı həm də ondadır ki, dərslikdə yeni üsul və metodlara, günümüzün aktual məsələsinə çevrilmiş İKT-nin dərs prosesində tətbiqi məsələlərinə geniş yer verilib. Metodik vəsait xarici dillərin tədrisi üçün lazım olan yanaşma, metod və üsul terminlərinin aydınlaşdırılması və izahı baxımından dəyərlidir. Kitab giriş, 17 bölmə, nəticə və ədəbiyyat siyahısını göstərən hissələrdən ibarətdir. Kitabın bölmələrində təlim metodlarından, kommunikativ dil tədrisindən, oxu, yazı, dinləmə, danışmadan bəhs olunur.

Motivasiya bölməsində təlimdə mühüm amil hesab olunan motivasiyadan, tələbələrdə motivasiyanı şərtləndirən amillərdən, xarici dilə maraq yaratmağın yollarından, sinifdə motivasiyanı yaratmaq üçün labüd olan beş amildən bəhs edilir.

Kitabda təlim metodlarından, kommunikativ dil tədrisindən, qiymətləndirmə növləri və formalarından, vizual materialların istifadəsindən, müəllimin müasir dövrdə məhz interaktiv təlim metodunda daşıdığı vəzifələrdən və rolundan bəhs olunur. Kitabın bütün bölmələri önəmli, sistemli məlumatlarla zəngindir. Burada təlim metodları ayrı-ayrılıqda sadalanıb və onlar haqqında həm nəzəri, həm də vizual xarakterli məlumatlar verilib. Bütün fikirlər əyani nümunələrlə aydınlaşdırılıb. Müəllifə bundan sonrakı fəaliyyətində uğurlar arzulayırıq.

***Aidə CƏLİLZADƏ***
***Naxçıvan Dövlət Universitetinin İngilis dili kafedrasının müəllimi***

## Elan

Naxçıvan Dövlət Film Fondunda məktəblilərin yay tətili günlərində 15 iyun 2014-cü il tarixdən həftənin III, IV, V günləri Azərbaycanfilm kinostudiyasında istehsal olunan bədii, cizgi, qısametrajlı filmlər nümayiş etdiriləcək. Seans səhər saat $11^{00}$-də başlanır. Giriş pulsuzdur.

***Ünvan: Heydər Əliyev Sarayı, Naxçıvan Dövlət Film Fondunun kino zalı.***
***Əlaqə telefonu: (036) 544-50-86***

### *Allah rəhmət eləsin*

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Stomatoloji şöbəsinin müdiri İldırım Heydərov və şöbənin əməkdaşları iş yoldaşları Həsən Qasımova, atası **BƏHLULUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Qaz İstismarı İdarəsinin kollektivi Xaləddin Rüstəmova, anası **BƏYİM XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Bələdiyyəsinin kollektivi Xaləddin Rüstəmova, anası **BƏYİM XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin tarix ixtisasının 2002-ci il məzunları tələbə yoldaşları **ELXANIN** vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ** *qapısı*
Baş redaktor: TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 492